# Regionların inkişafı yeni mərhələdə

**Bu gün ölkə regionlarının inkişafı istiqamətində uğurla reallaşdırılan dövlət proqramları respublikada qeyri-neft sektorunun davamlı yüksəlişinə, sosial infrastrukturun keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına, nəticədə, əhalinin məşğulluğunun artırılmasına təkan verir. Regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayan və bu istiqamətdə kompleks tədbirlər həyata keçirən Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrasını mütəmadi olaraq şəxsən yoxlaması və bölgələrin təkmil konsepsiyanın icra vəziyyəti ilə bağlı hər il xüsusi müşavirələr keçirməsi bir daha göstərir ki, regionların tərəqqisi dövlət başçısının fəaliyyətində prioritet istiqamətdir.**

Dövlətimizin başçısının Şəki və Oğuz rayonlarına dekabrın 2-də səfəri zamanı Qaraməryəm–İsmayıllı–Şəki avtomobil yolunun Oğuz–Şəki hissəsinin yenidənqurmadan sonra açılışında iştirak etməsi, Orta Zəyzid kəndində quru meyvə istehsalı müəssisəsində yaradılan şəraitlə, Şəki Xan məscidi kompleksində, "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olması da bunun bariz ifadəsidir. Ölkə rəhbərinin iştirakı ilə həmin gün Oğuz rayonunda üç kiçik su elektrik stansiyaları silsiləsinin, körpələr evi-uşaq bağçasının istifadəyə verilməsi, dövlət başçısının "Şəki–Oğuz" Aqroparkında yaradılan şəraitlə və bu müəssisənin torpaq sahəsinin suvarma suyu ilə təminatı ilə maraqlanması, habelə "Şəki–Oğuz" Aqroparkının qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlini qoyması da regionların inkişafının diqqət mərkəzində saxlanılmasının göstəricisidir.

Yeri gəlmişkən, təkcə Şəki və Oğuz rayonlarının deyil, Azərbaycanın bütün bölgələrinin inkişafı istiqamətində atılan addımlar, reallaşdırılan layihələr xüsusi önəm daşıyır. Dövlətimizin başçısının rayonlara səfərləri çərçivəsində mülki və hərbi obyektlərin, yeni müəssisələrin açılış mərasimlərindəki çıxışları, imzaladığı sərəncamlar, müvafiq strukturların nümayəndələrinə verdiyi tapşırıq və tövsiyələr də xüsusi əhəmiyyət kəsb edir. Bu qayğı və diqqət bölgələrimizə yeni nəfəs gətirməklə yanaşı, yeni imkanlar açır, rayon mərkəzləri və kəndlərimiz daha da tərəqqi edir, abadlaşır.

**(ardı 3-cü səhifədə)**



# Regionların inkişafı yeni mərhələdə

(əvvəli 1-ci səhifədə)

Regionlara göstərilən qayğının nəticəsidir ki, artıq bölgələrdə sosial-iqtisadi sahələrdə dinamik inkişaf nəzərə çarpır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının xətti ilə yeni layihələr gerçəkləşdirilir. Eyni zamanda, hər il bu proqrama əlavələr edilir. İnsanların maddi durumu da diqqətdə saxlanılır. Öz sosial şəraitini tam təmin edə bilməyən vətəndaşın köməyinə dövlət gəlir.

Regionlarda makroiqtisadi sabitliyin qorunması, iş yerlərinin və məşğulluğun saxlanılması, eləcə də inkişafı, büdcə gəlirlərinin iqtisadi bazası olan daxili tələbin və investisiyaların dəstəklənməsi, habelə "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması istiqamətində ciddi addımlar atılması da bölgələrdə iqtisadi dinamikaya öz müsbət təsirini göstərir.

Bu gün regionlarda iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına da prioritet istiqamət kimi yanaşılır. Buna görə də Azərbaycanda əmək və məşğulluq sahəsində həyata keçirilən islahatlar nəticəsində əmək qanunvericiliyi beynəlxalq əmək normalarına uyğunlaşdırılır, əmək bazarının təkmilləşdirilməsi, əmək münasibətlərinin sosial dialoq, kollektiv müqavilələr və sazişlərlə tənzimlənməsi istiqamətində uğurlu nəticələr əldə olunur.

Ötən illər ərzində Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsi daim diqqət mərkəzində saxlanılıb. Buna, ilk növbədə, qeyri neft-qaz sektorunun getdikcə böyüməsi, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması sayəsində yeni istehsal-emal müəssisələrinin fəaliyyətə başlaması zəmin yaradıb.

Əhalinin işlə təminatının daim diqqət mərkəzində olmasını Dövlət Statistika Komitəsinin təqdim etdiyi rəqəmlər də təsdiqləyir. Təkcə keçən il Azərbaycanda 69 min yeni iş yerinin açılması da deyilən fikrin bariz ifadəsidir. Bu, onu göstərir ki, əhalinin məşğulluğunun təmin edilməsi dövlətin prioritetləri sırasında qalmaqdadır.

Beləliklə, iqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulan prioritetlər uğurla həllini tapır. Eyni zamanda, qeyri-neft sektorunda kənd təsərrüfatı məhsullarının payı artır. Nəticədə həm də emal müəssisələri çoxalır. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunması və idxaldan asılılığın aradan qaldırılması ilə yanaşı, həm də yeni iş yerləri deməkdir.

Bütün bunlar Azərbaycanda investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin yeritdiyi iqtisadi siyasətin məntiqi nəticəsidir.

Onu da vurğulayaq ki, dövlətimizin başçısı hökumətin həyata keçirdiyi tədbirlərin icra prosesini daim nəzarətdə saxlayır, habelə ölkənin strateji resurslarını qlobal layihələrin reallaşdırılması istiqamətində səfərbər edir.

Prezident İlham Əliyev vaxtaşırı bölgələrdə səfərdə olur, yerlərdə əmək kollektivləri ilə görüşür, insanların sosial probleri ilə dərindən maraqlanır, eyni zamanda, müxtəlif təyinatlı infrastruktur obyektlərinin, yeni müəssisələrin istifadəyə verilməsi mərasimlərində iştirak edir.

Yeri gəlmişkən, burada bir məqamı xüsusilə vurğulamaq istərdik. Belə ki, ölkə rəhbərinin müvafiq tapşırıqları əsasında respublikamızda kənd yollarının inşası və yenidən qurulması geniş vüsət alıb. Bütün bölgələrdə kənd yollarının tikintisi ilbəil daha da genişləndirilir. Bu həm sosial, həm də iqtisadi layihələrdir. Həmin layihələrin icrası nəticəsində on minlərlə yeni iş yeri açılır. Təzə kənd yolları yerlərdə aqrar bölmənin əsaslı şəkildə inkişafına təkan verir, kənd təsərrüfatı məhsullarının bazarlara rahat və operativ şəkildə çatdırılmasına əlverişli şərait yaradır. Kənd yollarının inşasının genişləndirilməsi məqsədilə büdcə vəsaiti ilə yanaşı, Prezidentin Ehtiyat Fondundan da əlavə vəsait ayrılır.

**İ.HƏSƏNOV,**
**V.BAYRAMOV,**
**"Xalq qəzeti"**